**“Statistika xəbərləri” elmi-praktik jurnalının redaksiyasına**

Elçin Hacının “Seçmə statistika müşahidələrinin aparılmasının metodoloji əsasları” adlı məqaləsinin “Statistika xəbərləri” elmi-praktik jurnalında nəşr olunması üçün

**RƏY**

Məqalədə seçmə müşahidələrin təşkili və aparılması üçün həyata keçirilən mərhələlərdən bəhs edilir. Burada seçmə müşahidələrinin aparılması mərhələlərinin qarşılıqlı əlaqəsi, layihələrin hazırlanması, seçmə müşahidəsi üçün məlumat bazası, ev təsərrüfatlarında və müəssisələrdə seçmə müşahidələrin aparılması xüsusiyyətləri, müşahidələr üçün tətbiq edilən seçmə üsulları, seçməyə düşən vahidlərin sayının müəyyənləşdirilməsinə təsir edən amillər, seçmənin nəticələrinin işlənməsi, müşahidənin xətaları, məlumatların redaktəsi, müşahidələrin keyfiyyətinə nəzarət, keyfiyyət göstəriciləri və keyfiyyətin qiymətləndirilməsi məsələləri öz əksini tapmışdır.

Məqalənin mövzusu aktual olduğu üçün və məzmunu təklif edilən mövzunu əhatə etdiyinə görə onun “Statistika xəbərləri” elmi-praktik jurnalında dərc olunması məqsədəuyğundur.

**Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin “Elmi-araşdırmalar və statistik tədqiqatlar” şöbəsinin aparıcı iqtisadçısı** **Saleh Mövlamov**